

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

27 may 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 19 (3532)


# CƏNUBİ QAFQAZDA SÜLHÜN TƏMƏLLƏRİ ATILIR

## *Prezident İlham Əliyev regiona yeni inkişaf modeli gətirən layihələrin müəllifidir*

İkinci Qarabağ müharibəsinin nəticələri haqqında tarix öz hökmünü verəcək. Ancaq bəri başdan da deməк olar ki, torpaqlarımızın işğaldan azad olunması, apardığımız haqq savaşında qazanılan hərbi qələbəmiz ölkəmizin bölgədəki statusunu, siyasi nüfuzunu bir qədər də artırdı. Artıq Azərbaycan qalib ölkədir və dövlət başçımızın da bəyan etdiyi kimi, yaranmış yeni reallıqlara uyğun öz qaydalarını özü müəyyənləşdirir.

Məğlub ölkə olan Ermənistanın da nicatı yeni inkişaf və əməkdaşlıq əlaqələrinin yol xəritəsini hazırlayan Prezident İlham Əliyevin siyasi xəttinə konstruktiv münasibət göstərməsindən birbaşa asılıdır. Çünki noyabrın 10-da imzalanmış üçtərəfli sənəddə nəzərdə tutulan kommunikasiyaların açılması Ermənistanın düşdüyü acınacaqlı iqtisadi vəziyyətdən çıxmasına da imkanlar yaradır.

Yeni reallıqları və bölgədə daimi sülh prespektivini Prezident İlham Əliyev keçirdiyi bütün tədbirlərdə, görüşlərdə, yerli və xarici mətbuata verdiyi müsahibələrində dünyaya çatdırır. Mayın 20-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə səsləndirdiyi fikirlər də bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Prezident müzakirələr zamanı deyib ki, 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və erməni vandalizminə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Cənubi Qafqazda fəal



əməkdaşlığın və inteqrasiyanın mümkün olacağına ümidvar olduğunu bildirən dövlətimizin başçısı xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılmasının əhəmiyyətinə toxunub. "Sizə deyə bilərəm ki, bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. Bu səbəbdən, bildirmək istəyirəm ki, Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də, qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik".

Prezident İlham Əliyev "Signify" - əvvəlki adı "Philips Lighting" olan şirkətin baş icraçı direktoru Erik Rondolatı və şirkətin rəhbərliyinin digər nümayəndələrini qəbul edərkən də Azərbaycanın postkonflikt dövründə yalnız quruculuq-abadlıq işlərinə fokkuslandığını göstərdi. Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən infrastruktur layihələrinə diqqət çəkdi, Şuşa və Ağdam şəhərlərinin baş planlarının hazırlanmasında bu şirkətin qoşulmasının məqsədəuyğun olduğunu bildirdi.

Eləcə də Böyük Britaniyanın ixracat naziri Qraham Styuartı və İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifinin qəbulu zamanı müharibədən sonrakı əməkdaşlıq imkanları müzakirə olundu, dost və müttəfiq dövlətlərin dəstəyi ilə bölgədə sülh prespektivinə inam ifadə edildi.

Qeyd edək ki, Azərbaycana 30 milyard dollardan çox investisiya yatırmış Birləşmiş Krallıqdan işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün şirkətlər dəvət olunub. Azərbaycana dost ölkə olan Britaniya şirkətləri ilə əməkdaşlığın genişləndirilməsinin olduqca böyük əhəmiyyəti vardır, Prezident İlham Əliyev də nazirlə görüşündə bu məsələyə xüsusilə toxunmuşdur.

Bundan başqa, qonşu İranla da regionda yeni situasiyanın - münaqişədən sonrakı vəziyyətin yaranması ilə əlaqədar bölgə ölkələrinin xeyrinə uzunmüddətli və dayanıqlı sülh şəraitində inkişafa zəmin yaranıb. Dövlətimizin başçısı İranın xarici işlər nazirinin diqqətinə çatdırıb ki, Azərbyacanın bu mövqeyini İran hökuməti də paylaşır.

Beləliklə, qeyd edə bilərik ki, Prezident İlham Əliyev müharibənin ilk günündən başlayaraq təkbaşına apardığı informasiya savaşı ilə həqiqətləri dünyaya çatdırdığı kimi, postmüharibə dövründə də daimi sülh üçün yeni informasiya strategiyası tətbiq edir.

---

**Azərbaycan Polisi öz dövlətiylə həmyaşdır. Bu ifadə öz–özlüyündə çox mətləbdən xəbər verir. Mayın 28-də Respublikamızın 103 "yaşını" qeyd edəcəyik, iyulun 2-də isə Azərbaycan Polisinin yaranmasından bir o qədər vaxt keçir. Polis bir əsrdən çoxdur Azərbaycan xalqını, dövlətini cinayətkar təhdidlərdən qoruyur, qanunların keşiyini çəkir, yeri gəlir, bu amal uğrunda canını belə əsirgəməyir...**

# Dövlətə və dövlətçiliyə sədaqətlə

1918-ci ilin mayın 28-də Cümhuriyyət elan olunandan sonra ilk olaraq yaradılan qurumlarından birinin məhz Daxili İşlər Nazirliyinin olması dövlət quruculuğu üçün polisin nə qədər əhəmiyyətli rol oynamasının tarixi təcəssümüdür. O zamankı hökumətin qərarı ilə iyulun 2-də Azərbaycanda ilk asayişi mühafizə dəstələri yaradılıb və bu dəstələr milli maraqların qorunmasında mühüm rol oynayıblar. Polisi dövlətin sütunlarından biri adlandıran, onun xalq və Vətən qarşısındakı xidmətlərini həmişə yüksək dəyərləndirən ulu öndər Heydər Əliyev də məhz bu tarixi faktı nəzərə alaraq, iyulun 2-ni "Polisi Günü" elan etmişdir.

Azərbaycan Polisi xidmətinə erməni-daşnak millətçilərinə qarşı mübarizəylə başlayıb. Bu dövr polisin fədakar xidmətinin yazıldığı ilk günlər kimi tarixə düşüb. Bakıda və ətraf bir neçə qəzada Mart soyqırımı kimi dəhşətli kütləvi qətillər törətmiş böyük cinayətkar dəstələrin mövcud olduğu dövrdə Azərbaycan Polisi əsl qəhrəmanlıq örnəyi sərgiləyirdi. Polis həm xalqın azadlığını və dövlətin müstəqilliyini müdafiə edir, həm də separatizmə qarşı mübarizə aparırdı.

Yüz ildən çox vaxt keçir...

Bu gün Azərbaycan Polisi cinayətkarlıqla qətiyyətli mübarizə aparmaqla, etibarlı sabitlik yaratmaqla, müstəqilliyimizin sarsılmazlığına, dönməzliyinə də güclü ictimai inam formalaşdırıb. Çağdaş dünyada, elə bizə yaxın coğrafiyada hökm sürən xaotik böhranlar, dini zəmində baş verən qarşıdurmalar bir çox xalqlar üçün nikbin gələcək vəd etməyən vəziyyət yaratsa da, Azərbaycanda sabitlik polis-vətəndaş həmrəyliyi sayəsində etibarlı qorundu. Bu gün inamla deyə bilərik ki, ölkəmizdə əmin-amanlıq bölgə ölkələri arasında və hətta Avropanın əksər dövlətləri ilə müqayisədə daha yaxşı mühafizə olunur.

Deməli, bir əsr əvvəl şərqdə ilk demokratik dövlət yarada bildiyimiz kimi, əsrin sonunda bu tarixi uğurun üzərinə regionun təhlükəsiz, etibarlı, güclü və nüfuzlu dövlətinə sahib olmaq əlamətini də əlavə etmişik.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB

**Mayın 26-da Daxili İşlər Nazirliyində Bakı şəhərində baş tutacaq beynəlxalq idman tədbirləri - "Formula-1" və futbol üzrə Avropa çempionatının 4 oyununun keçiriləcəyi müddətdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini zamanı qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında əməliyyat müşavirəsi keçirilib.**



Müşavirəni giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışlarına ev sahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.



Bu ilin iyun-iyul aylarında keçiriləcək beynəlxalq idman tədbirləri zamanı da gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyini diqqətə çatdıran nazir, builki yarışların pandemiya dövrünə təsadüf etdiyini və bununla əlaqədar müəyyən məhdudiyyətlər şəraitində təşkil olunacağını bildirib.

Nazir Vilayət Eyvazov keçiriləcək oyunlar zamanı iştirakçıların, azarkeşlərin və ölkəyə gələn qonaqların təhlükəsizliyinin təmin edilməsi, oyunların keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, şəhər ərazisindəki azarkeşlərin toplanma məntəqələrində təhlükəsizliyin gücləndirilməsi barədə tələb və tövsiyələrini verib.

# Bütövlüyümüz və birliyimiz üçün döyüşdülər

## *Qalib xalqın, qalib ordunun Zəfər salnaməsini yazanlar*

***Vətən sevdası, torpaq yanğısı, ən ümdəsi, bizi birləşdirən və bu gün Azərbaycanı bütövlüyünə qovuşduran ən ali dəyər-Azərbaycançılıq ideologiyası Vətən savaşında bizə qalibiyyət bəxş etdi. Dilindən və milli kimliyindən asılı olamayaraq hər birimiz yumruq kimi birləşib "Qarabağ, Azərbaycandır!",-dedik. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər".***



**Vətən savaşında şücaət göstərən silahdaşlarımızdan biri də çavuş İlkin Abuyevdir.** O, 1998-ci il avqustun 29-da Qusar rayonunun Atluxan kəndində doğulub. Orta təhsilini böyüyüb boya-başa çatdığı Atluxan kənd tam orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2016-2018-ci illərdə Daxili Qoşunların Bakı şəhəri, Nərimanov rayonunda yerləşən "N" saylı hərbi hissəsinin komendant bölüyündə keçib. Hələ uşaq yaşlarından hərbi xidmətə böyük marağı olduğundan, Daxili Qoşunların Hacıqabul rayonundakı "N" saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətdə qalaraq, Vətən qarşısında olan şərəfli borcunu yerinə yetirməkdə davam edib.

2019-cu ilin sentyabr ayından 2020-ci ilin fevral ayınadək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilən "Gizir komando təməl kursu"nda təhsil alıb.

2020-ci ilin fevral ayından Daxili Qoşunların Lənkəran rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətini davam etdirən çavuş İ.Abuyev yaralandığı günədək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və müsbət fərdi keyfiyyətləri ilə fərqləndiyinə görə hərbi hissə komandanlığı tərəfindən bir neçə dəfə mükafatlandırılıb.

Hərbi qulluqçumuz Füzuli və Şuşa istiqamətlərində aparılan əməliyyatlarda fəal iştirak edib. İlk döyüşü isə 2020-ci il oktyabrın 17-də Füzuli istiqamətində, "Karyer" deyilən ərazidə olub: "Burada düşmənin "Beton post" deyilən möhkəmləndirilmiş mövqeləri istiqamətində baş vermiş şiddətli döyüşdə dəstəmizin cəsur hərbi qulluqçularından kiçik gizir Anar Məmmədov qəhrəmancasına şəhid oldu, digər silahdaşımız çavuş Elvin Abbasov isə ağır yaralandı. Lakin buna baxmayaraq, düşməni məhv edərək strateji əhəmiyyətli mövqeləri tutmağa müvəffəq olduq. Bundan sonrakı döyüş tapşırığımız isə Şuşanın azad olunması oldu. Şuşa istiqamətində təxminən 4-5 gün piyada, düşmənin xəbəri belə olmadan, çətin keçilə bilən dağlıq-meşəlik, sıldırım qayalıq yollarla irəliləməli olduq.

Nəhayət, çətinliklə da olsa, qrup komandirimiz kapitan Taleh Rüstəmlinin rəhbərliyi altında təyin olunmuş vaxtda, qarşımıza qoyulan tapşırığa uyğun olaraq, şəhər ətrafındakı yüksəklikdə mövqe tutduq və növbəti əmri gözləməli olduq. Dəhşətli dərəcədə yorulmuşduq. Səhər alaqaranlıqda düşmən üzərinə hücuma keçməli idik. Lakin gecə saatlarında olduğumuz mövqelər ermənilər tərəfindən müxtəlif çaplı silahlardan, o cümlədən tank və minaatanlardan güclü atəşə məruz qaldı. Bu vaxt yerimi dəyişmək istəyirdim ki, yanıma düşən tank mərmisinin qəlpəsi sol qolumu ağır yaraladı. Əvvəl nə baş verdiyini bilmədim. Sonra baxıb gördüm ki, sol qolum yoxdur. Atıcı-sanitarlardan çavuş Famil Məmmədov (Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb), çavuş Zeymud Mustafayev və



qoşunların Sumqayıt şəhərindəki "N" saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Tahir Babayev mənə ilkin tibbi yardım göstərdilər. Noyabrın 9-u axşam digər yaralılarla birlikdə əvvəlcə Hadrut qəsəbəsinə, sonra Füzuli Rayon Xəstəxanasına, oradan isə Bakıya, Daxili Qoşunların Hərbi Hospitalına göndərildim".

İlkini üzən ən ağrılı hadisə isə yaralandığı zaman birgə xidmət etdiyi iki döyüşçü yoldaşının onun yanında eyni anda həlak olmasıdır: "Çox təəssüflər olsun ki, mən yaralandığım vaxt dəstəmizin cəsur döyüşçülərindən baş çavuş Allahyarov Vüsal Şakir oğlu və çavuş Orucov Afər Yafət oğlu düşmənin atdığı tank mərmisinin partlaması nəticəsində eyni anda şəhid oldular. Bundan əlavə, bu döyüşdə dəstəmizin digər cəsur hərbi qulluqçusu, mənim də ən yaxın dostum olan əsgər Məmmədov İsmayıl Fərhad oğlu gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəldi".

Vətən uğrunda sol qolunu itirən cəsur qazimizin təsəllisi isə dəmir yumruqtək birləşib müqəddəs torpaqlarımızı azad etməyimizdir: "Çox şükürlər olsun ki, bizə Qələbə sevinci yaşamaq nəsib oldu. Qalib ölkənin vətəndaşı olmağımla yalnız qürur duyuram".

**Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə çavuş Abuyev İlkin Elxan oğlu "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.**

*mayor Anar Əhmədov*

# Unudulmur və yaddan çıxmırlar

**Qusar Rayon Polis Şöbəsinin əməkdaşları Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan, eləcə də bu döyüşlərdə sağlamlıqlarını itirən igidlərimizin ailələrini ziyarət ediblər.**



DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupundan verilən məlumata görə, RPŞ-nin əməkdaşları rayon ərazisində yaşayan 37 şəhid ailəsini və 13 qazini ziyarət ediblər.

Görüşlərdə ötən illər ərzində daha da azğınlaşan, cəbhə bölgəsindən uzaqda yaşayan dinc insanları qətlə yetirməklə müharibə cinayətləri törədən düşmənin 44 günlük Vətən savaşında qüdrətli ordumuz tərəfindən darmadağın edildiyi xüsusi vurğulanıb.

Qeyd olunub ki, bu tarixi Zəfərin əldə olunmasında xidmətləri olan hər kəsi xalqımız daim minnətdarlıq hissi ilə yad edir.

Şəhidlərimizin və qazilərimizin keçdikləri döyüş yolunun hərb tariximizdə yeni bir səhifə açdığını deyən asayiş keşikçiləri gənc nəslin vətənpərvər ruhda yetişməsində bunun mühüm rol oynadığını diqqətə çatdırıblar.

Şəhid ailələrinin üzvləri və qazilər onlara göstərilən diqqətə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə və şəxsi heyətinə təşəkkür ediblər.

# "Xaşxaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində

"Qax RPŞ-nin əməkdaşları tərəfindən Əlibəyli kəndi ərazisində 1,4 ton çəkidə 4250 ədəd, Fıstıqlı kəndi ərazisində 1 ton 442 kiloqram çəkidə 10300 ədəd, Bərdə RPŞ-nin əməkdaşları tərəfindən Lənbəran kənd sakini S.Osmanova məxsus sahədən 1641 ədəd, Goranboy RPŞ-nin əməkdaşları tərəfindən Şəfəq kəndi ərazisində 1 ton 320 kiloqram çəkidə 2200 ədəd, Qax RPŞ-nin əməkdaşları tərəfindən Marşan kəndi ərazisində 1,5 ton çəkidə 4000 ədəd, Zaqatala RPŞ və DSX əməkdaşları tərəfindən Danaçı kəndi ərazisində 1,6 ton çəkidə 11000 ədəd, Neftçala RPŞ-nin əməkdaşları tərəfindən Mikayıllı kəndi ərazisində 10 ton çəkidə 11132 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

Kürdəmir RPŞ-nin əməkdaşları Atakişili kənd sakini V.Bəkirova məxsus həyətyanı sahədən 20 ədəd, Beyləqan RPŞ-nin əməkdaşları M.Abbasovun evinin həyətindən 20 ədəd, Tovuz RPŞ-nin əməkdaşları Yuxarı Öysüzlü kənd sakini, əvvəllər məhkum olunmuş Ş.Qasımova məxsus həyətyanı sahədən 531 ədəd, habelə qonşusuna məxsus həyətyanı sahədə yetişdirdiyi 649 ədəd, Ağdaş RPŞ-nin əməkdaşları şəhər sakini, əvvəllər məhkum olunmuş T.İbrahimova məxsus həyətyanı sahədən 15 ədəd, Saatlı RPŞ-nin əməkdaşları Mustafabəyli kənd sakini, əvvəllər məhkum olunmuş M.İsgəndərova məxsus həyətyanı sahədən 15 ədəd, əvvəllər məhkum olunmuş B.Şəmmədova məxsus həyətyanı sahədən 14 ədəd, qardaşına məxsus həyətyanı sahədən isə 6 ədəd, Masallı RPŞ-nin əməkdaşları şəhər sakini S.Abiyevə məxsus həyətyanı sahədən 15 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürmüşlər. Tovuz RPŞ-nin əməkdaşları Hunanlar kənd sakini, əvvəllər məhkum olunmuş C.Əliyevə məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 41 ədəd çətənə kolu, yaşadığı evə baxış zamanı isə 155 qram marixuana aşkar edərək götürmüşlər.

*Natiq Cavadov,*
*polis mayoru*

# "Qayıdış"ın sorağı

## *Polisin fəaliyyətindən bəhs edən sənədli film çəkilib*

**Tanınmış jurnalist Mirşahin Ağayevin Vətən savaşından sonra azad olunan torpaqlarımızda asayişin qorunmasını həyata keçirən Azərbaycan Polisinin və DİN Daxili Qoşunlarının hərbi qulluqçularının fəaliyyətinə həsr olunan "Qayıdış" adlı sənədli filmi ekran üzü görüb.**

Filmdə Birinci Qarabağ müharibəsində səngərdə düşmənlə məhz polis əməkdaşlarının vuruşmasından, DİN Daxili Qoşunlarının yaranmasının həmin çətin günlərə təsadüf etməsindən, eləcə də o ərəfədə ölkə daxilində fəaliyyət göstərən qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsindən ətraflı bəhs edilir.

***Ulu öndər Heydər Əliyevin "Ermənilər Dağlıq Qarabağda iddialara başlayanda, ön cəbhədə polis dayanmışdı. Polis sinəsini irəli verib vuruşdu. Qarabağda mindən çox polis işçisi torpaqların müdafiəsi uğrunda şəhid, altı yüzdən çoxu əlil olub"*** sözləri filmdə yaxın tariximizə işıq tutan fraqment kimi keçir. İkinci Qarabağ müharibəsində də Azərbaycan Polisinin Ali Baş Komandan İlham Əliyevin əmri ilə xalqın hüzurunda olduğu xüsusi vurğulanan filmin süjet xətti boyunca postlarda xidmət aparan asayiş keşikçilərinin müsahibələrinə və Daxili Qoşunların hərbi qulluqçularının döyüş xatirələrinə yer ayrılıb. Azad olunan torpaqlarımıza Azərbaycan Polisinin fəaliyyətilə asayişin də qayıtdığı tutarlı arqumentlərlə əsaslandırılır.

Həmkarlarımızın Qarabağdakı fəaliyyəti barədə dolğun təsəvvürə malik olmaq üçün filmi izləmək yetər.

# Yaşatmaq üçün qan verdilər

**Polis əməkdaşları vaxtaşırı olaraq müxtəlif xeyriyyə tədbirlərində iştirak edir, nəcib təşəbbüslərə qoşulurlar. Bugünlərdə talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək olmaq məqsədilə təşkil olunan qanvermə aksiyası da belə tədbirlərdən biridir.**



Ənənəvi olaraq hər il "Qan ver, yaşat!" aksiyasına qoşulan yol polisi əməkdaşları növbəti dəfə qan veriblər. **Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsində baş tutan aksiyada idarənin rəhbərliyi və bütün şəxsi heyət iştirak edib.** Mərkəzi Qan Bankının əməkdaşlarının iştirakı ilə keçirilən aksiyada ümumilikdə 80 litr qan tədarük edilib.



Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi karantin qaydalarının tələbləri nəzərə alınmaqla keçirilib.

*"Polis"*

# Sətirlərə sığmayan təşəkkürlər

**Vətən savaşında qazandığımız Zəfər, bir xalq olaraq, həmrəyliyimizin, milli birliyimizin göstəricisidir. Qətiyyət və iradə nümayiş etdirərək torpaqlarımızı işğaldan azad etdik. Dövlətin bütün qurumları kimi o çətin günlərdə polis sözlə ifadə olunmayacaq qədər mübarizə əzmi ilə xidmət apardı. Həm ön cəbhədə, həm də arxa cəbhədə vətəndaşının yanında oldu.**

Bu gün hər bir azərbaycanlı bilir ki, qarşıya çıxan çətinliklərin öhdəsindən gəlmək üçün polis onun yanındadır. Onun hüquqlarını, əmlakını qorumaqla həm vəzifəsinin öhdəsindən layiqincə gəlməyə çalışır, həm də insanların sevgisini, sayğısını qazanır. Polisə hörmət və ehtiramla yazılan məktubların əsas ünvanı isə Daxili İşlər Nazirliyidir. Düzdür, vətəndaşlarımız sosial şəbəkələr üzərindən, o cümlədən KİV-lər vasitəsilə də Azərbaycan Polisinə ehtiramlarını bildirirlər.

Polis olmaq istəyinin reallaşdığı üçün qürur hissi keçirən Vətən müharibəsi iştirakçısı, **Bakı şəhər sakini Yadulla Həsənzadə təşəkkür məktubunda yazır:** "DİN rəhbərliyinə ünvanladığım müraciətimə dərhal cavab verildi. Sıra baxışında seçilərək daxili işlər orqanlarında xidmətə qəbul olundum. Dövlətimə xidmətimlə qürur duyuram. Mənə göstərilən etimadı doğrultmaq üçün hər zaman səy göstərəcəyəm. Torpaqlarımızın müdafiəsində olduğu kimi, vətəndaşlarımızın hüquqlarının qorunması istiqamətində də hər zaman müsəlləh əsgərəm".



**Daha bir Vətən müharibəsi iştirakçısı, paytaxt sakini Əbülfət Qasımovun** DİN rəhbərliyinə ünvanladığı məktubun məzmunu fərqli olsa da, qayəsi eynidir, təşəkkür doludur. O, mənzilində baş vermiş oğurluq hadisəsi ilə bağlı müraciətinin obyektiv araşdırılaraq, operativ tədbirlərin həyata keçirildiyinə görə Suraxanı RPİ-nin 32-ci Polis Bölməsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

**Vətən savaşının qazisi, paytaxt sakini Nazim Kazımov** da qarşılaşdığı problemlə bağlı müraciətinə son dərəcə həssaslıqla yanaşıldığına və ona dəyən maddi ziyanın ödətdirildiyinə görə Azərbaycan Polisinə minnətdarlığını bildirir.

**Bakı şəhər sakini Riad Hüseynəliyev** isə ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında fədakarlıq nümayiş etdirərək, vəzifə borclarını layiqincə yerinə yetirən Sabunçu RPİ 12-ci Polis Şöbəsinin əməkdaşlarının xidmətindən məmnunluğunu ifadə edir.

**Paytaxt sakini Təbriz Qəffari Əsl Saray** pul qabının oğurlanması ilə bağlı etdiyi müraciətə operativ yanaşılaraq qısa müddət ərzində tapılıb ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Azərbaycan Polisinə təşəkkürünü bildirir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Peşəkar xidmət, etibarlı mühafizə




**Paytaxtın Nizami rayonundakı marketdən oğurluq etmək istəyən şəxs elə cinayət başında yaxalanıb.**

Belə ki, mayın 25-də gecə saat 02:00 radələrində Nizami Rayon Mühafizə İdarəsi tərəfindən xüsusi vasitələrlə qorunan Qara Qarayev prospektində yerləşən marketdən "həyəcan" siqnalı daxil olub. Nizami RMİ-nin operativ tutucu qrupu dərhal hadisə yerinə yaxınlaşıb. **Polis serjantları Məhəmməd Əsgərov və Ruslan Mahmarzayev** obyektə baxış keçirərkən, içəridə bir nəfərin olduğunu müəyyən ediblər.

Marketdən oğurluq etməyə cəhd göstərən həmin şəxs qaçmaq istəsə də, polis əməkdaşlarının çevikliyi sayəsində saxlanılaraq Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsinə təhvil verilib. Bölmədə aparılan araşdırmalar zamanı onun əvvəllər Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə iki dəfə məhkum olunan və hazırda barəsində axtarış elan edilmiş paytaxt sakini İlqar Rəcəbov olduğu müəyyən edilib.

Faktla bağlı başlanmış cinayət işi üzrə istintaq araşdırmaları davam etdirilir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Onların da köməyinə polis çatdı...

Bakı şəhər sakini S.N. DİN-in "102" Zəng Mərkəzinə müraciət edərək içərisində bank kartları, pul, sənədlər olan pulqabısını Ağsu rayonu ərazisində naməlum şəraitdə itirdiyini bildirib və tapılmasında köməklik göstərilməsini xahiş edib.

**Daxil olmuş müraciətlə əlaqədar Ağsu Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən vətəndaşın pulqabısının tapılması üçün zəruri tədbirlər görülüb.** Asayiş keşikçiləri qısa zaman ərzində qadını sevindirməyi bacarıb. Belə ki, həmin pulqabı rayon ərazisindəki restoranların birində tapılaraq sahibinə təhvil verilib.

Qadın müraciətinə operativ reaksiya verdiklərinə görə polis əməkdaşlarına öz minnətdarlığını bildirib.

❖❖❖

**Saatlı Rayon Polis Şöbəsinin əməkdaşları** rayon ərazisində xidmət aparan zaman içərisində sənədlər, qızıl-zinət əşyaları, pul kisəsi və plastik kartlar olan əl çantası aşkarlayıblar.

Tapıntı dərhal RPŞ-nin Növbətçi Hissəsinə təqdim edilib və sahibinin tapılması üçün tədbirlər həyata keçirilib.

Qısa müddət ərzində əl çantasının rayon sakini olan bir qadına məxsus olduğu müəyyənləşdirilib və itirdiyi şəxsi əşyalar ona təqdim ediblib.

Vətəndaş polislərə təşəkkürünü bildirib.

❖❖❖

**Bugünlərdə köməksiz vəziyyətdə qalan ailəyə yol patrul xidməti əməkdaşları köməklik göstərib.** Belə ki, vətəndaş həyat yoldaşını doğum evinə apararkən yolda tıxaca düşüb. Sürücü həmin vaxt xidmətdə olan YPX inspektorlarına yaxınlaşaraq vəziyyəti izah edib.

Dünyaya gələcək körpənin və ananın həyatı risk altında olduğu üçün **Bakı şəhər BPİ DYPİ-nin YPXA-nın** həmin ərazidə xidmətdə olan əməkdaşları vəziyyətin ciddiliyini nəzərə alıb dərhal sürücünü müşayiət edərək xəstəxanaya çatdırıblar.

Sürücü yoldaşının və dünyaya gələcək övladının həyatını xilas edən polis əməkdaşlarına dərin təşəkkürünü bildirib.

# Tədbirlər davam etdirilir

## Məqsəd təhlükəsiz hərəkətin təminidir

***Salyan RPŞ Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən piyadalara yol verməyən sürücülər, eləcə də piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulması hallarının qarşısının alınması məqsədi ilə gücləndirilmiş nəzarət-profilaktik tədbirlər davam etdirilib.***



Tədbirlər zamanı piyada keçidlərində piyadalara yol verməyən sürücülər müəyyən edilib, onlara yol hərəkəti qaydalarına riayət etməyin vacibliyi xatırladılaraq, qayda pozuntularına yol verməmələri tövsiyə olunub. Eyni zamanda mövcud keçidlərdən istifadə etməyərək həyatları üçün ciddi təhlükə yaradan piyadalarla da maarifləndirici söhbətlər aparılıb.

Bundan əlavə, küçə və prospektlərdə, təhlükəsiz hərəkətin təmini məqsədilə piyada keçidlərində, yol nişanlarında cizgiləmə işləri aparılıb, yeni yol nişanları qoyulub, köhnə nişanlar yeniləri ilə əvəzlənib.

***Nəzarət-profilaktik tədbirlər Sabirabad rayonunda da davam etdirilib.*** Belə ki, RPŞ Dövlət Yol Polisi Bölməsinin əməkdaşları küçə və prospektlərdə dayanma-durma qaydalarının düzgün təmin edilməsi ilə bağlı reyd keçiriblər. Rayon ərazisində müəyyən edilməyən yerlərdə nəqliyyat vasitələrini saxlayan, həmçinin avtobus dayanacaqlarını və piyada səkilərini zəbt edən sürücülərlə profilaktik söhbətlər aparılıb, onlara parklanma qaydalarına ciddi riayət etmələri tövsiyə olunub.



Qaydaları kobud şəkildə pozan sürücülər barəsində inzibati qaydada tədbirlər görülüb.

***Daha bir tədbir atmosferin zərərli qazlarla çirkləndirilməsinin qarşısının alınması məqsədilə Zaqatala RPŞ Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilib.***



Avtomobillər saxlanılaraq xüsusi cihazlar vasitəsilə zərərli qazların miqdarı yoxlanılıb. Bəzilərinin atmosferə normadan artıq tullantı ixrac etdiyi müəyyən olunub. Həmin sürücülərlə izahedici söhbətlər aparılıb, ixrac qazlarının normalara uyğunlaşdırılmasını təmin etdikdən sonra nəqliyyat vasitələrindən istifadə etməli olduqları diqqətə çatdırılıb. Standartlara cavab verməyən avtomobillərin sürücüləri barəsində inzibati qaydada tədbir görülüb.

# Daha bir lisenziya

## İdmançımız Yay Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanıb




**DİN İdman Cəmiyyətinin yetirmələri Yay Olimpiya Oyunlarına daha bir lisenziya əldə edib.** Belə ki, Rusiyanın Xabarovsk şəhərində boks üzrə keçirilən lisenziya xarakterli beynəlxalq turnirdə Cəmiyyətin iki yetirməsi-Ümüd Rüstəmov və Şərif Kazımzadə iştirak edib.

Əvvəlcə 57 kiloqram çəki dərəcəsində rinqə çıxan boksçumuz finala doğru inamla addımlayıb. O, rəqibləri olan özbək, rus və yapon idmançılarına qalib gəlib. Gərgin keçən final mübarizəsində digər rus idmançısından xal hesabı ilə geri qalıb və 2-ci yerə sahiblənib. Buna baxmayaraq, Ü. Rüstəmov Oyunlarda iştirak etmək hüququnu qazanıb.

75 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan digər yetirməmiz Şərif Kazımzadə isə fəxri kürsünün 3-cü pilləsində yer alıb. Finala çıxa bilməyən idmançımız lisenziya əldə etmək şansını da qaçırıb.

Qeyd edək ki, Ü.Rüstəmovu bu yarışa DİN İdman Cəmiyyətinin "Əməkdar məşqçi"si Yadigar Məmmədov hazırlayıb.

*Ə.Teymur*

# Sağlam gələcək naminə...

## Yetkinlik yaşına çatmayanlara tütün məmulatı satanlar barədə tədbir görüldü

**Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən yetkinlik yaşına çatmayanlara alkoqollu içkilərin və tütün məmulatlarının satışının qarşısının alınması istiqamətində mütəmadi olaraq tədbirlər keçirilir.**




İdarədən aldığımız məlumata görə, keçirilən növbəti belə reyd zamanı paytaxtın Binəqədi və Nərimanov rayonları ərazisində iki mağazada yetkinlik yaşına çatmayana tütün məmulatları satılması faktı aşkar edilib.

Polis əməkdaşları tərəfindən mağazanın satıcıları barədə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən (Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə) inzibati tənbeh tədbiri tətbiq olunub.

Reydlər davam etdirilir.

# Daxili İşlər Nazirliyi beynəlxalq əməkdaşlığa xüsusi önəm verir

**Transmilli mütəşəkkil cinayətkarlıq beynəlxalq əməkdaşlığı və təcrübə mübadiləsini bütün dövlətlərin qarşısında zəruri şərt kimi müəyyən edib. Dünyada gedən sürətli texnoloji yenilənmə insanların həyatına rahatlıq gətirdiyi kimi təhlükəsizlik qayğılarını da artırır. Cinayətə meyilli olanlar texnoloji imkanlardan istifadə edərək kibercinayətkarlıq, bank və şəxsi məlumatların oğurlanması, insan və narkotik alveri kimi cinayət əməllərini yeni "metodlarla" həyata keçirirlər. Məhz bu səbəbdən də cinayətkarlığın yeni forma və təzahürlərinin mahiyyətini dəyişməsi özünü büruzə verir, ictimai sabitliyə, eləcə də regional sabitliyə ciddi risklər yaradır.**



Son illərdə yaxın coğrafiyamızda adi xuliqanlıq zəminində baş verən hadisələrin qəfil vətəndaş müharibəsinə çevrilməsinin və bu kimi hadisələrin sürətli xəbərləşməyə xidmət etməli olan sosial platformalar vasitəsilə körüklənməsinin şahidi olmuşuq. Bu barədə dünya mətbuatında kifayət qədər xəbər, analitik təhlillər dərc edilib. Əksər halda bu yazılar xoşniyyətdən qaynaqlanmasa da, dövrün yeni təhdidlərini izah etmək baxımından əlçatan nümunələr sayıla bilər.

Dünyanın təhlükəsizlik qayğıları real olduğuna görə tərəfdaş ölkələrin müvafiq güc strukturları ilə əlaqə qurmaq, beynəlxalq müqavilələrə və konvensiyalara qoşulmaq, heç şübhəsiz ki, təhdidlərə qarşı mübarizənin kəsərini artırır. İnkişaf etmiş ölkələr bu dəyişikliklərə cavab olaraq cinayətkarlığa qarşı mübarizədə elmi-texniki yenilikləri əsas metod kimi nəzərdən keçirir və tətbiq edirlər. Məsələ ondadır ki, 5-10 il əvvəl cinayətkarlıqla mübarizədə tətbiq olunmuş metodika arzuolunan nəticələrin əldə edilməsində işə yaramadığına görə onu dəyişdirməyə və ya yenisi ilə əvəz etməyə ehtiyac, hətta zərurət yaranır. Məhz bu faktor dövlətlərin hüquq mühafizə orqanları arasında beynəlxalq əməkdaşlığın gücləndirilməsini vacib edir.

### Beynəlxalq qurumlarla güclü tərəfdaşlıq münasibəti qurulub

Azərbaycanın daxili işlər orqanları dünyada gedən dəyişiklikləri yaxından izləmək, onların ölkəmizdəki müvafiq infrastruktura uyğunluğunu müəyyənləşdirmək və müvafiq tədbirlərin görülməsini təmin etmək məqsədilə beynəlxalq tərəfdaşlarla birgə mübarizə üsullarını dərindən öyrənir, informasiya mübadiləsi aparır. Bu məqsədlə Daxili İşlər Nazirliyi əməkdaşlarının transmilli mütəşəkkil cinayətkarlıqla, o cümlədən narkotiklərin, silahların qanunsuz dövriyyəsi, terrorçuluq, insan alveri, qanunsuz miqrasiya, korrupsiya, çirkli pulların yuyulması, kibercinayətkarlıqla mübarizə, həmçinin məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, eləcə də itkin düşmüş şəxslərin axtarışı, kriminalistik tədqiqatlar mövzusunda ölkədə və onun hüdudlarından kənarda keçirilən konfrans, seminar və treninqlərdə iştirakını təmin edir. İndiyədək ölkəmizin daxili işlər orqanlarının 5 mindən çox əməkdaşı BMT, NATO, Avropa Şurası, ATƏT kimi mötəbər beynəlxalq qurumların, eləcə də müxtəlif xarici tərəfdaş ölkələrin təşkil etdiyi forum, müşavirə və treninqlərdə iştirak edib, təcrübə mübadiləsi aparıblar.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan milli təhlükəsizlik strategiyasına uyğun olaraq, cinayətkarlıqla beynəlxalq mübarizə sahəsində praktiki olaraq, bütün beynəlxalq sənədlərə qoşulub, müxtəlif ölkələrlə çoxtərəfli və ikitərəfli müqavilələr bağlayıb. Terrorizmlə mübarizədə koalisiyanın tərkibinə daxil olan ölkəmiz transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə fəal iştirakçıya çevrilməklə, beynəlxalq səviyyədə qanun və hüquq qaydasının təmin edilməsinə böyük töhfələr verir. Xüsusən, son dövrlər dünya ictimaiyyətində çox ciddi narahatlıq doğuran dini ekstremizmin və terrorçuluqla bağlı təhdidlərinin artması fonunda qabaqlayıcı iş aparılır. Bu baxımdan, aidiyyəti dövlət orqanları ilə birgə xarici ölkələrdə silahlı münaqişələrdə, terrorçuluq və dini ekstremist fəaliyyətdə iştirak edənlərin müəyyən edilməsi, sərhədkeçmələrinə məhdudiyyət qoyulması və əməliyyat nəzarətində saxlanılması istiqamətində ciddi tədbirlər həyata keçirilir.

*Ardı var.*

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

---

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Suraxanı RPİ 31-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 234-cü maddəsi ilə axtarışda olan Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş T.Məlikov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqram 67 qramdan artıq heroin və 19 ədəd tramadol həbi aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Ağsu RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində R.Şərifovdan 2 ədəd avtomat patronu və yaşadığı Ağsu şəhərindəki evdən isə "AK-74" markalı avtomat, patron darağı və 28 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Şəki ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində fevralın 26-da şəhər ərazisində fəaliyyət göstərən MMC-lərdən birinə məxsus "Mercedes" markalı avtomobildən 14072 manat pul oğurlamaqda şübhəli bilinən həmin MMC-nin işçisi F.Əliyev saxlanılmışdır.

Ondan həmin pulla aldığı "Nissan" markalı avtomobil maddi sübut kimi götürülmüşdür.

◆◆◆

**Cəlilabad Rayon Polis Şöbəsi və DTX-nin Cəlilabad Rayon Şöbəsi** əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində 10 kiloqramdan artıq heroin aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb.

Cəlilabad RPŞ-yə daxil olmuş məlumat əsasında keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən, əvvəllər məhkum olunmuş Astara rayon sakini A.Əlili, Bakı şəhər sakinləri C.Sumbatov və C.Babayev sonuncunun idarə etdiyi "Khazar" markalı avtomobildə saxlanılaraq polis şöbəsinə gətiriliblər. Şöbədə keçirilən baxış zamanı A.Əlili və C.Sumbatovun üzərindən bir bükümdə heroin, avtomobildən isə 7 bükümdə, çəkisi 10 kiloqram 625 qram olan heroin, 2 ədəd bıçaq, 3 ədəd şpris və 1 ədəd şüşə ampula aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Şəkərli kənd sakini F.Tağıyevin idarə etdiyi "Hyundai" markalı avtomobilə baxış zamanı sərnişini, Masallı rayon sakini V.Salmanovdan 348 qramdan artıq heroin və 100 qrama yaxın metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Tovuz RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində R.Qələndərovun şəhər ərazisindəki yaşadığı evə baxış zamanı oradan 1 kiloqram 545 qram marixuana aşkar edilərək götürülmüşdür.

---

## 2021-ci ilin II yarısı üçün "Polis"ə-
## öz qəzetinizə abunə olmağa tələsin!



**Azərbaycan müstəqillik əldə etdikdən sonra 1992-ci ildə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına, 2002-ci ildə isə Konvensiyanın iki əlavə protokoluna qoşulub.1998-ci ildə ölkəmizdə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasının müddəalarını özündə əks etdirən "Uşaq Hüquqları haqqında" Qanun qəbul edilib.**

Bu gün ölkəmizdə uşaq problemləri sahəsində aparılan dövlət siyasəti onların sağlam mühitdə tərbiyə edilməsi üçün

# Uşaqlar bizim gələcəyimizdir

### *Onlara diqqət və qayğı göstərmək hər birimizin borcudur*

lazımi şəraitin yaradılmasına, valideyn himayəsindən məhrum olan uşaqlara dövlət qayğısının artırılmasına, uşaq baxımsızlığının, uşaq alverinin, uşaq əməyinin istismarının, uşaqlara qarşı zorakılığın qarşısının alınmasına yönəlib.

Sözügedən məsələ ilə bağlı cəmiyyətin maarifləndirilməsində QHT-lərin fəallıq nümayiş etdirmələri dövlət qurumlarının, o cümlədən hüquq mühafizə orqanlarının işini də asanlaşdırıb. ***"Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadə "Polis"ə bildirib ki, ötən il gücləndirilmiş karantin rejimi dövründə Birliyin nəzdində olan Uşaq Sığınacağı-Reinteqrasiya Mərkəzinə daxili işlər orqanları tərəfindən 34 uşaq təhvil verilib ki, bunların da 16 nəfəri oğlan, 18-i qızdır. Bundan əlavə, 5 nəfər qadın da sığınacağa pənah gətirib.***

K.Ağazadə bu ilin müvafiq dövrü ərzində DİO əməkdaşları tərəfindən 20 uşağın Birliyə gətirildiyini qeyd edib.

Birliyin sədri 2020-2021-ci illər ərzində TV-lər, Nazirliklər, QHT-lər, Rayon İcra Hakimiyyətləri və digər qurumlar tərəfindən baxımsız, ailə münaqişəsi nəticəsində evi tərk edən, dilənçiliklə məşğul olan, valideyn himayəsindən məhrum olan uşaq və qadınların Sığınacağa qəbul olunduğunu da diqqətə çatdırıb.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

---

# İşimizi ASANlaşdıranlar

### *Dövlət siyasətinin əsas prioriteti vətəndaş məmnunluğudur*

**"ASAN xidmət" mərkəzlərində vətəndaşalara göstərilən yüksək səviyyəli xidmətdə daxili işlər orqanlarının əməkdaşlarının öz payı var. Məlum olduğu kimi, şəxsiyyət vəsiqələrinin və ümumvətəndaş pasportlarının verilməsi, dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, habelə məhkumluq barədə arayışların verilməsi bu mərkəzlərdə çalışan polis əməkdaşları tərəfindən təmin olunur.**



***DİN Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan 5 saylı "ASAN Xidmət" mərkəzi üzrə regional qrupun baş inspektoru, polis baş leytenantı Leyla Əliyevanın*** sözlərinə görə, vətəndaşlar hazırda daha çox yeni nəsil biometrik vəsiqələrlə bağlı müraciət edirlər. Eyni zamanda, sənədlərin itirilməsi, yaşayış ünvanını dəyişmə və uşaqlara ilkin vəsiqə almaq üçün edilən müraciətlər əksəriyyət təşkil edir.

Vətəndaşlara onlayn qaydada növbə tutmaq imkanı da yaradılıb. Mərkəzlərdə növbə gözləmək istəməyən vətəndaş evdən, iş yerindən növbəyə yazıla bilər.

L.Əliyevanın sözlərinə görə, şəhid ailələrinə, əlillərə, qazilərə, sağlamlıq imkanları məhdud olan vətəndaşlara və körpə uşaqla gələnlərə növbədənkənar xidmət göstərilir. Fiziki qüsurlu və sağlamlığı məhdud olan şəxslərə xidmət göstərmək üçün həmkarlarımız onların yaşadığı ünvana gedir və bütün prosedurlar yerindəcə həyata keçirilir. Diqqətimizə o da çatdırıldı ki, şəhid ailələrinə "Yaşat" Fondu tərəfindən ayrıca otaq ayrılıb və xüsusi avadanlıqlarla təchiz edilib. Onlar müraciət etdikdə polis əməkdaşları dərhal onların sənədlərini qəbul edirlər.

Mərkəzlərdə könüllü kimi işləyənlərdən daxili işlər orqanlarının sıralarına qatılanların olduğunu deyən müsahibimiz onları polis olmaq arzusunun, polisə olan sevginin sıralarımıza gətirdiyini vurğulayır.

L.Əliyeva deyir ki, əsas məqsədimiz vaxt itkisinin qarşısını almaq, vətəndaşların məmnun qalması üçün gücümüzü səfərbər edib, onlara layiqli xidmət göstərməkdir.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

---

## May ayının 19-dan 25-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 277 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 38 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 219, o cümlədən borclu şəxs qismində axtarışda olan 129 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 16 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 167 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik